

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

*Qəzet 1921-ci ildən çıxır*

# ŞƏRQ qapısı

**Təsisçi: *Nazçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti***

Sayı: 129 (21.281)

*3 iyul 2015-ci il, cümə*

***Gündəlik ictimai-siyasi qəzet***

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Sosial-iqtisadi inkişaf proqramının uğurlu icrası Naxçıvanı regionun ən inkişaf etmiş şəhərinə çevirir

***Bu gün muxtar respublika yeni inkişaf mərhələsinə, intibah dövrünə qədəm qoyub. Aparılan geniş tikinti-quruculuq işləri paytaxt Naxçıvan şəhərini də əhatə edib.***

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2014-cü il 31 yanvar tarixli Sərəncamı ilə təsdiq olunan "2014-2015-ci illərdə Naxçıvan şəhərinin sosial-iqtisadi inkişafı üzrə Proqram" bu istiqamətdə həyata keçirilən tədbirlərə stimul verib. Ötən müddətdə proqramın icrası istiqamətində görülən işlər muxtar respublika paytaxtında əhəmiyyətli dəyişikliklərə səbəb olub.

Proqramda xüsusi diqqət yetirilən sahələrdən biri inzibati binaların tikintisi və təmiridir. Proqramın qəbulundan sonra bu istiqamətdə atılan ilk addım Naxçıvan şəhərinin Qaraçuq kənd inzibati ərazi dairəsi üzrə nümayəndəliyi üçün inzibati binanın və xidmət mərkəzinin inşa edilməsi olub və hər iki obyektin tikintisi başa çatdırılıb.

Proqramın icrası çərçivəsində şəhər sakinlərinin keyfiyyətli rabitə xidmətlərindən istifadəsi üçün də ötən ildən başlayaraq məqsədyönlü işlər görülüb. Belə ki, "Evədək optika" layihəsi çərçivəsində internetə genişzolaqlı qoşulma, IP TV və telefon xidmətlərinin daha da genişləndirilməsi, simsiz internet şəbəkəsinin ən müasir texnologiyalar əsasında inkişaf etdirilməsi üçün bir sıra tədbirlər reallaşdırılıb.

Şəhər sakinləri tərəfindən minnətdarlıqla qarşılanan işlərdən biri sözügedən proqramda nəzərdə tutulan istilik, su təchizatı və kanalizasiya təchizatında müasir infrastrukturun yaradılmasıdır. Bu məqsədlə Naxçıvan şəhərindəki kəhrizlərdə təmir-bərpa işləri aparılıb, su-kanalizasiya qurğularının tikintisi həyata keçirilib. İctimai yaşayış binalarında istilik, su-kanalizasiya sistemlərinin yenidən qurulması və müasirtipli fərdi qazanxanaların tikintisi sahəsində uğurlu nəticələr əldə edilib.

Bəhs olunan dövrdə Naxçıvan şəhərində 10 və 0,4 kilovoltluq hava elektrik verilişi xətlərinin müvafiq gərginlikli kabel xətləri ilə əvəz edilməsi həyata keçirilib. Qaz təchizatında mütərəqqi addımlardan biri isə Naxçıvan şəhərində smartkarttipli qaz sayğaclarının quraşdırılmasıdır. Əhali qrupu üzrə təbii qaz istehlakçılarının mavi yanacaqdan müasir standartlara cavab verən texnologiyalar vasitəsilə istifadəsi məqsədilə Naxçıvan şəhərində ön ödənişli smartkarttipli



qaz sayğaclarının quraşdırılmasına başlanılıb. "Naxçıvanqaz" İstehsalat Birliyi tərəfindən ilkin olaraq Naxçıvan şəhərində sınaq üçün 7 ədəd sayğac quraşdırılıb.

Naxçıvan şəhərinin sosial-iqtisadi inkişafı üzrə proqramda diqqəti çəkən başlıca məqam onun sosial həyatın ən müxtəlif sahələrini əhatə etməsidir. Bu baxımdan yol təsərrüfatı və nəqliyyatda ən müasir infrastrukturun qurulması bu sahədə olan çətinliklərin aradan qaldırılması məqsədi daşıyır. Çünki abad yol iqtisadi inkişafın əsas göstəricilərindəndir. Proqrama uyğun olaraq, ötən il və bu ilin ötən dövrü ərzində bir hissəsi yekunlaşdırılmış işlər sırasında Naxçıvan şəhərinin küçələrində və Xətai məhəlləsində abadlıq işlərinin aparılması, şəhərdaxili nəqliyyatda işləyən avtobusların beynəlxalq standartlara cavab verən müasir avtobuslarla əvəz olunması, Naxçıvan şəhərində nəqliyyatın sıx olduğu yerlərdə piyada keçidlərinin yaradılması, İslam Səfərli küçəsində avtomobil parkının tikintisi, Naxçıvan şəhərinin Qaraçuq, Bulqan, Qaraxanbəyli kəndlərində mərkəzi yollara asfalt örtüyün salınması, Naxçıvan şəhərində ictimai nəqliyyat üçün yeni dayanacaqların quraşdırılması da var.

Qeyd edək ki, adıçəkilən dövlət sənədində Naxçıvan şəhərində yaşıllaşdırma tədbirlərinin aparılması da nəzərdə tutulub. Ötən dövrdə Naxçıvan şəhərində yeni istirahət parklarının qurulması və yaşıllıq sahələrinin artırılması, İslam Səfərli küçəsində yenidənqurma işlərinin aparılması, şəhərətrafı qəsəbə və kəndlərdə bağçılıq təsərrüfatının genişləndirilməsi davam etdirilib.

Ötən il üçün gənclər və idman sahəsində proqramda nəzərdə tutulan mühüm tədbir Naxçıvan şəhərində Gənclər Mərkəzinin tikintisinin başa çatdırılması olub. Şəhər sakinləri üçün təhsil sahəsində ötən ilin və bu ilin ən əlamətdar, yaddaqalan hadisələri Naxçıvan şəhər 11 nömrəli, Naxçıvan şəhərinin Qaraçuq kəndində 9 nömrəli tam orta məktəb binalarının yenidən qurulması, "Naxçıvan" Universiteti üçün tədris, inzibati və yataqxana binalarından ibarət kompleksin tikilməsi, Naxçıvan Dövlət Universitetinin Xəstəxanası və Baytarlıq təbabəti ixtisası üçün yeni binaların istifadəyə verilməsi olub.

Muxtar respublikada səhiyyənin inkişafına xüsusi diqqət yetirilir, müasir infrastruktur qurulur, yeni-yeni şəfa ocaqları həyata vəsiqə alır, bu şəfa ocaqları ən müasir tibbi avadanlıqlarla təchiz edilir. Sevindirici haldır ki, Naxçıvan şəhərinin sosial-iqtisadi inkişafı üzrə proqramda Naxçıvan şəhərində daha beş səhiyyə müəssisəsinin müasirləşdirilməsi nəzərdə tutulub. Proqramın qəbulundan ötən dövr ərzində Naxçıvan şəhərinin Qaraçuq kəndində həkim ambulatoriyası tikilərək istifadəyə verilib, Yoluxucu Xəstəliklər Mərkəzi üçün binanın tikintisi başa çatdırılıb. Naxçıvan Muxtar Respublika Xəstəxanası binasının yenidən qurulması, Naxçıvan şəhərində bitkiçilik və heyvandarlıq sahələri üzrə əczaxananın yaradılması istiqamətində görülən işlər isə davam etdirilir.

Naxçıvan şəhərinin sosial-iqtisadi inkişafı ilə bağlı proqram şəhərdə müasir mədəniyyət obyektlərinin sayının artmasına da mühüm təsir göstərib. Belə ki, 2014-cü ildə "Naxçıvanqala" Tarix-Memarlıq Muzey Kompleksində tikinti-bərpa işləri başa çatdırılıb, Dövlət Bayrağı Meydanının tikintisi yekunlaşdırılıb, Naxçıvançay vadisində əyləncə və istirahət mərkəzi əhalinin ixtiyarına verilib. Proqrama uyğun olaraq, Naxçıvan şəhərində müasir hamam kompleksinin tikintisi yekunlaşdırılıb, Kalbalıxan küçəsində Xatirə Muzeyi üçün bina inşa edilərək istifadəyə verilib. Naxçıvan şəhərinin Qaraçuq kəndində Uşaq musiqi məktəbinin binasının yenidən qurulması kənd sakinlərinin ürəyincə olub.

İctimai yaşayış binalarının yenidən qurulması, əhalinin mənzil-məişət şəraitinin yaxşılaşdırılması da aparılan tikinti-quruculuq işlərinin tərkib hissəsidir. "2014-2015-ci illərdə Naxçıvan şəhərinin sosial-iqtisadi inkişafı üzrə Proqram"ın qəbulu ilə Naxçıvan şəhərinin Əziz Əliyev küçəsində yeni yaşayış kompleksinin tikintisinə start verilib, Atatürk küçəsində 9 nömrəli yaşayış binasının tikintisi başa çatdırılıb. Atatürk küçəsində 5 nömrəli ictimai yaşayış binası yenidənqurmadan sonra sakinlərin ixtiyarına verilib, Heydər Əliyev prospektindəki yeni ictimai yaşayış binasının tikintisi başa çatdırılıb.

Qeyd edək ki, "2014-2015-ci illərdə Naxçıvan şəhərinin sosial-iqtisadi inkişafı üzrə Proqram"ın qəbulundan ötən müddətdə kiçik və orta sahibkarlığın inkişafının dəstəklənməsi, kənd təsərrüfatının infrastruktur təminatı ilə bağlı 20-dən çox tədbirin icrası davam etdirilib.

***Ümumiyyətlə, "2014-2015-ci illərdə Naxçıvan şəhərinin sosial-iqtisadi inkişafı üzrə Proqram"ın uğurlu icrası şəhərimizin daha da gözəlləşməsinə və müasirləşməsinə, inkişafına öz töhfəsini verəcək, insanların daha yaxşı şəraitdə işləməsinə və yaşamasına, sakinlərin mənzil-məişət, təhsil, istirahət şəraitinin yaxşılaşmasına imkan yaradacaq.***

**Səbuhi HÜSEYNOV**

## Kəngərli rayonunun Böyükdüz massivində yeni sənaye şəhərciyi salınır



*Son illər muxtar respublika iqtisadiyyatında yüksək templə inkişaf edən sahələrdən birinə çevrilən və yerli istehsalın stimullaşdırılmasında mühüm əhəmiyyətə malik olan sənaye sektorunda həyata keçirilən tədbirlər nəticəsində Naxçıvanda idxaləvəzləyici və ixracyönümlü məhsullar istehsal edən rəqabətqabiliyyətli müəssisələr fəaliyyətə başlayıb. Bu istiqamətdə işlər cari ildə də uğurla davam etdirilir.*

Hazırda "Gəmiqaya Holdinq" Şirkətlər İttifaqı Kəngərli rayonunun Böyükdüz massivində yeni sənaye şəhərciyi yaradır. Alçıpan örtüklər, gips, əhəng və məsaməli beton istehsal ediləcək yeni zavodların inşasına ötən il başlanılıb. Artıq obyektdə beton, dəmir konstruksiya işləri başa çatmaq üzrədir. Hazırda əraziyə elektrik, qaz, su və kanalizasiya xətləri çəkilir.

"Gəmiqaya Holdinq" Şirkətlər İttifaqının əməkdaşı Kamal Kərimovun verdiyi məlumata görə, yeni layihələrin reallaşması üçün Sahibkarlığa Kömək Fondundan dövlət maliyyə dəstəyi göstərilib. Layihəyə uyğun olaraq, alçıpan örtüklər, gips, əhəng və məsaməli beton istehsal olunacaq zavodlara Çin Xalq Respublikasının bu sahədə qabaqcıl təcrübəyə malik şirkətlərindən müasir texnoloji avadanlıqlar alınıb gətirilib. İdxal olunan avadanlıqlar həmin şirkətlərin mütəxəssisləri tərəfindən quraşdırılır.

Mütəxəssislər qrupunun rəhbəri Ding Sheng bizimlə söhbətində qeyd etdi ki, 2012-ci ildə tikilib istifadəyə verilən Naxçıvan Sement Zavodunda bizim şirkətdən alınıb gətirilmiş avadanlıqların quraşdırılmasında iştirak etmişik. İkinci dəfədir ki, Naxçıvanda həyata keçirilən yeni layihələrin icrasında mütəxəssis kimi iştirak edirik. Nümayəndəsi olduğum "Jiangsu Pengfei Group Co.LTD" şirkəti dünyada sement zavodları qurmaq sahəsində qabaqcıl təcrübəyə malik Almaniyanın "KHO", "Polysims", Danimarkanın "Flsm.dth" firmalarını soba, daşqırıcılar və üyüdücülərlə təmin edir.

Qeyd edək ki, müəssisə muxtar respublikamızda həyata keçirilən genişmiqyaslı quruculuq tədbirləri nəticəsində inşaat materiallarına artan tələbatı yerli istehsal hesabına ödənilməsi zərurətindən yaradılır. Cari ilin sonunadək istifadəyə verilməsi nəzərdə tutulan zavodlarda ildə 2 milyon kvadratmetr alçıpan örtük, 40 min ton gips, 150 min kubmetr məsaməli beton və 36 min ton əhəng istehsal ediləcək ki, bu da daxili bazarın tələbatını tamamilə ödəməklə yanaşı, bu yerli inşaat materiallarının xarici bazarlara çıxarılmasına da imkan yaradacaq. Əvvəllər bu inşaat materiallarına olan tələbat xaricdən idxal olunan məhsullar hesabına ödənilir, əlavə daşınma xərci çəkilirdisə, yeni layihənin reallaşması ilə bu problem aradan qaldırılacaq.

Yeni istehsal müəssisələrinin fəaliyyətə başlaması daxili bazarı keyfiyyətli məhsullarla təmin etməklə yanaşı, əhalinin məşğulluğunun təmin olunmasında da mühüm rol oynayacaq, 200 yeni iş yeri yaradılacaq. Onu da qeyd edək ki, müasir texnoloji avadanlıqlardan səmərəli istifadə etməyi bacaran ixtisaslı mütəxəssislərin hazırlanması da diqqət mərkəzində saxlanılır, müəssisədə çalışacaq işçilərin ixtisasartırma kurslarında iştirakı təmin olunur. Bu da imkan verəcək ki, istehsal prosesi yerli mütəxəssislər tərəfindən həyata keçirilsin.

**Kərəm HƏSƏNOV**

*Naxçıvan Muxtar Respublikasında həyata keçirilən kompleks quruculuq tədbirlərinin əsas istiqamətlərindən biri də ətraf mühitin qorunması, ekoloji problemlərin həll edilməsi və əlverişli ekoloji mühitin yaradılmasından ibarətdir.*

## Cari ilin ötən dövründə muxtar respublikada 250 hektar sahədə yaşıllaşdırma tədbirləri aparılıb

Müxtəlif təbii amillər, həmçinin muxtar respublikada kənd təsərrüfatının, müxtəlif sənaye sahələrinin inkişafı yaşıllıqların əhəmiyyətini daha da artırır.

Ötən əsrin 90-cı illərindən əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş yaşıllaşdırma tədbirləri bu sahədə xeyli uğurlar qazanılmasını təmin etmiş, meşə örtüklərinin ərazisi 0,6 faizdən 12 faizədək artmışdır. Görülən işlər 2015-ci ilin ötən dövründə də uğurla davam etdirilmişdir.

Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyindən verilən məlumata görə, cari ilin ötən dövründə muxtar respublika ərazisində – çay vadilərində, sututarların ətrafında, magistral yol kənarlarında, eroziya və şoranlaşmaya meyilli ərazilərdə, xüsusilə kənd təsərrüfatı əkinləri üçün yararsız olan torpaqlarda 250 hektar sahədə yaşıllaşdırma tədbirləri həyata keçirilmiş, 217 mindən çox meşə və meyvə tingləri, həmişəyaşıl ağac, gül və bəzək kolları əkilmişdir. Əkilən tinglərin 100 mindən çoxunu meyvə tingləri təşkil edir.

Hazırda mövsümlə əlaqədar olaraq yaşıllıq sahələrinə aqrotexniki qulluq göstərilir, suvarma tədbirləri həyata keçirilir.

**Səbuhi HƏSƏNOV**




# Bir neçə saat Naxçıvan şəhərindəki Avtovağzal Kompleksində

***Oxucularımızın əksəriyyəti muxtar respublikanın nəqliyyat sektorunun ötən əsrin 90-cı illərinin əvvəllərindəki vəziyyətini yaxşı xatırlayır. O dövrün dağıdıcılıq prosesi bu sahəyə də böyük zərbə vurmuşdu. İşlək vəziyyətdə olan avtovağzallar dağıdılmış, nəqliyyat vasitələri sıradan çıxarılmışdı. Bu isə muxtar respublika sakinlərini müxtəlif çətinliklərlə üz-üzə qoymuşdu. O çətin günlər artıq arxada qalıb.***

Son illərdə muxtar respublikada sərnişindaşıma xidmətinin səviyyəsini yaxşılaşdırmaq üçün mühüm tədbirlər həyata keçirilib. Bu tədbirlər sırasında muxtar respublikadakı avtovağzalların yenidən qurulması xüsusi qeyd olunmalıdır. Aparılan genişmiqyaslı quruculuq tədbirləri hesabına bu gün şəhər və rayonlarımızda müasir avtovağzallar fəaliyyət göstərir. Bəs bu avtovağzallarda əhaliyə necə xidmət göstərilir? Elə budəfəki həmsöhbətlərimiz də avtovağzalların xidmətindən istifadə edən sakinlər oldu. Hər gün öz qaynarlığı ilə seçilən Naxçıvan şəhərindəki Avtovağzal Kompleksində bir neçə saat müşahidələr apardıq. Əvvəlcə onu vurğulayım ki, hər gün 6000-ə yaxın sakinə xidmət göstərən kompleks öz təmizliyi və səliqə-sahmanı ilə göz oxşayır. Xidmətə gəlincə isə bir az sonra həmsöhbət olduğum insanlar bu barədə özləri danışacaqlar.

Qeyd edim ki, adıçəkilən vağzal binası 2009-cu ildə yenidənqurma işlərindən sonra istifadəyə verilib.

Artıq binanın istifadəyə verilməsindən 6 il keçib. İnsanlarımız pərakəndə halda fəaliyyət göstərən nəqliyyatdan, necə deyərlər, can qurtarıb. Avtovağzal binasında yaradılan şərait, sözün həqiqi mənasında, insanda xoş təəssüratlar yaradır. Kompleksə beynəlxalq və yerli reysləri həyata keçirmək üçün bölmələr, avtobus dayanacaqları, kafe, ticarət mərkəzi və mehmanxana daxildir. Burada bilet satışı kassaları, məlumat otağı, saxlama kamerası, valyutadəyişmə məntəqəsi fəaliyyət göstərir. Avtovağzaldan hər gün Naxçıvan-Bakı istiqamətinə 5-6, Naxçıvan-Türkiyə istiqamətinə 10-12 avtobus işləyir. Həmçinin Naxçıvan şəhərindən rayon mərkəzlərinə, hətta ən ucqar dağ kəndlərinə belə, avtobuslar yola salınır. Elə gözləmə zalında Şərur rayon sakini Xeyrulla Məmmədovla həmsöhbət oluram. Onun dediklərindən:

– Muxtar respublikanın sosial-iqtisadi inkişafı bu gün özünün elə bir mərhələsinə qədəm qoyub ki, təkcə ölkəmizin regionları ilə deyil, qonşu xarici ölkələrlə də əlaqələr, gediş-gəliş artıb. Belə bir dövrdə yolların, avtovağzalların müasir tələblərə cavab verməsinin əhəmiyyəti bir qədər də çoxalıb. Böyük dövlət qayğısı hesabına müasirliyə qovuşan qədim Naxçıvanımız barədə buraya gələnlərin ilkin təəssüratları da giriş-çıxış qapılarından formalaşır. Heç kimə sirr deyil ki, Naxçıvan Beynəlxalq Hava Limanına ilk dəfə qədəm qoyan insan blokada şəraitində yaşayan bir diyarın belə gözəl limanı olduğuna təəccübünü gizlədə, eləcə də limandan şəhərimizə gələn yolboyu yaradılan gözəlliklərin əfsunundan ayrıla bilmir. İndi bu xoş sözləri muxtar respublikamızın avtovağzal binaları üçün də söyləmək olar. Biz sakinlər heç bir çətinlik çəkmədən bu avtovağzallardan istifadə edirik.



Naxçıvan-Culfa-Naxçıvan istiqamətinə işləyən sürücü Vaqif Quliyevlə həmsöhbət oluram:

– Bir azdan yola çıxacağam. Uzun illərdir, sürücü işləyirəm. Bu yolların da, avtovağzalların da əziyyətini çox çəkmişəm. Elə anlar olub ki, harada dayanacağıma qərar verə bilməmişəm. Bizim rayonda avtovağzal binası elə vəziyyətdə idi ki, onu sözlə ifadə edə bilmirəm. Bina, ümumiyyətlə, dağıdılmışdı. Mövcud olan hissələrindən müxtəlif məqsədlərlə istifadə olunurdu. Rayon əhalisi və biz sürücülər bundan əziyyət çəkirdik. Sakinlər Naxçıvan şəhərinə, yaxud rayonun kəndlərinə gedib-gəlmək üçün pərakəndə şəkildə fəaliyyət göstərən marşrutlardan istifadə edirdilər. 2009-cu ildə Culfa şəhərində yeni avtovağzalın istifadəyə verilməsi böyük sevincimizə səbəb oldu, bütün çətinlikləri aradan qaldırdı. Artıq hər gün 400-500 sərnişinə xidmət edən avtovağzaldan istifadə edirik. Orada əhaliyə nümunəvi sərnişindaşıma xidməti göstərmək üçün hər cür şərait yaradılıb.

Sərnişin Mehdi Nəcəfovun dediklərindən:

– Ordubadın Aza kəndinə gedirəm. Şəhərə qohumlarımı görməyə gəlmişdim. Nə zaman gəlmək istəsəm, heç bir çətinlik çəkmirəm. Əvvəllər şəhərə gələndə çətinliklə maşın tapa bilsəm də, qayıtmaq ondan da çətin olurdu. İndi bilirəm ki, filan avtobus filan saatda çıxacaq. Qohumlarımı ürəyim istədiyi vaxt gəlib görə bilirəm.

Naxçıvan-Şərur istiqamətinə çıxan marşruta yaxınlaşırıq. Dəmirçi kəndindən olan Heydər Talıbov deyir:

– İşimlə əlaqədar şəhərə tez-tez gəlirəm. Şəxsi avtomobilim yoxdur. Amma bu gün avtovağzallarda elə bir şərait yaradılıb ki, heç bir çətinliklə üzləşmədən istədiyimiz ünvana gedirik. Əvvəllər yollarımız bərbad vəziyyətdə idi. Avtomobil bir saatlıq yolu iki saata qət edirdi. Amma indi elə avtobusa minirəm, bir də baxıram şəhərdəyəm.



Tələbə geyimində olan bir gənc qıza yaxınlaşıram. Naxçıvan Dövlət Universitetinin tələbəsidir. Özünü Gülnar Ələkbərli kimi təqdim edir. Deyir ki, imtahan vermək üçün şəhərə gəlib. İndi isə öz kəndlərinə – Culfa rayonunun Yaycı kəndinə qayıdır. Onunla da həmsöhbət oluruq:

– Universitetin yataqxanasında qalır, həftədə bir dəfə kəndə gedirəm. Bəzən Azərbaycanın başqa rayonlarından olan tələbə yoldaşlarımı da kəndimizə qonaq aparıram. Onlar ilk dəfə avtovağzalı, buradakı xidməti, sürücülərin geyim formalarını görəndə çox təəccüblənmişdilər. Çünki, həqiqətən, avtovağzallarımız müasirdir.

İki nəvəsi ilə Şərur şəhərinə yola düşəcək Cahan Əsədovaya yaxınlaşıram. O deyir:

– İki bacım Şərurda yaşayır. Yaşlıdırlar. Onlara tez-tez baş çəkirəm. Nə yaxşı ki bu avtovağzallar var. Avtovağzallarda yeni avtomaşınlardan istifadə olunur.

Avtovağzal Kompleksində ticarət mərkəzinin fəaliyyəti ilə tanış oluruq. Mağazalarda sənaye və ərzaq məhsullarının, elektrik cihazlarının, geyim dəstlərinin, hədiyyələrin satışı həyata keçirilir, sərnişinlərə foto xidməti göstərilir.

Ticarət mərkəzində diqqətçəkən mağazalardan biri baytarlıq mağazasıdır. Satıcı Gözəl Heydərova deyir ki, burada heyvandarlıqla və arıçılıqla məşğul olan insanlar üçün geyim dəstləri, müxtəlif avadanlıqlar satılır. Şərur rayonundan olan alıcı Fərmayıl Əhmədova yaxınlaşırıq:

– Heyvandarlıqla məşğul oluram. Şəhərə gələndə mütləq bu mağazadan nəsə alıram. Bu gün də malqaranın müxtəlif xəstəliklərinin müalicəsi üçün lazım olan dərman preparatları aldım.

Avtovağzal Kompleksinə daxil olan beşmərtəbəli mehmanxana binası da müasirliyi ilə seçilir. İstər yerli vətəndaşlar, istərsə də xarici vətəndaşlar burada yaradılan şəraitdən razıdırlar.

***Kompleksdə kiminlə həmsöhbət oldumsa, burada yaradılan şəraitdən ağızdolusu danışdı, dövlətimizə minnətdar olduğunu bildirdi. Bu isə o deməkdir ki, muxtar respublikada hər sahənin inkişafı diqqət mərkəzində saxlanılır. Ancaq o da var ki, regionun müxtəlif ünvanlarında yeni avtovağzal binalarının istifadəyə verilməsi heç də asan məsələ deyil. Bunların yaradılmasına külli miqdarda vəsait sərf olunub. Məqsəd isə aydındır: insanlarımız rahat olsun, əziyyət çəkmədən nümunəvi nəqliyyat xidmətindən istifadə etsinlər. Bu da, öz növbəsində, həm sürücülər və nəqliyyat xidməti işçiləri, həm də sərnişinlər qarşısında mühüm vəzifələr qoyur: onlar yaradılmış belə şəraitdən düzgün istifadə etməlidirlər.***

✍ **Sara ƏZİMOVA**

# Orta ixtisas təhsili müəssisələrinə və V ixtisas qrupu üzrə ali məktəblərə qəbul imtahanı keçirilib



***Dünən TQDK ali təhsil müəssisələrinin V ixtisas qrupuna (xüsusi qabiliyyət tələb edən ixtisaslara), 9 illik və tam (11 illik) orta təhsil bazasından orta ixtisas təhsili müəssisələrinə (kolleclərə) qəbul olunmaq istəyən əvvəlki illərin məzunları üçün qəbul imtahanları keçirib.***

Qeyd olunan imtahanlar, bütövlükdə, ölkəmizin 14 şəhər və rayonunda – Bakı, Naxçıvan, Gəncə, Tovuz, Sumqayıt, Mingəçevir, Şəki, Ağcabədi, Göyçay, Şirvan, Salyan, Lənkəran, Masallı və Xaçmazda 64 imtahan mərkəzində təşkil olunub və bütün binalarda eyni vaxtda – saat $10^{00}$-da başlanıb.

Naxçıvan şəhərində Heydər Əliyev adına tam orta məktəbdə və Naxçıvan şəhər 1, 7, 14 nömrəli tam orta məktəblərdə təşkil olunan imtahanlarda 2144 abituriyent iştirak edib. İmtahan keçirilən məktəblərin hamısında əvvəlcədən görülən hazırlıq işləri, abituriyentlərin bilik və bacarıqlarını üzə çıxarmaq üçün yaradılan şərait imtahanların şəffaf keçirilməsini təmin edib. İmtahan başlanmazdan əvvəl imtahan keçiriləcək məktəblərin önündə həyəcanlı görünən abituriyentlər, onların valideynləri ilə görüşüb həmsöhbət olduq. Onların fikirlərini öyrəndik. Valideyn Rəşadət Dadaşlı dedi:

– Qızım Turac V ixtisas qrupu üzrə imtahan verəcək. Övladımın ən böyük arzusu tələbə adını qazanmaqdır. Ötənilki imtahanlarda iştirak edib, ancaq müvəffəqiyyət qazana bilməyib. Amma məqsədinə çatmaq üçün 1 il ərzində öz üzərində ciddi çalışıb. Bu dəfə əminik ki, tələbə adını qazanacaq.

Saatlar $10^{00}$-u göstərəndə imtahan başladı. İmtahan qurtarana kimi biz də müşahidələrimizi apardıq. İmtahanın gedişi zamanı abituriyentlər heç bir qayda pozuntusuna yol verməyərək diqqətlərini ancaq test tapşırıqlarına yönəltdilər. Ümumiyyətlə, imtahanda təşkilatçılıq yüksək səviyyədə idi. İmtahanın ümumi rəhbəri Qasım Əliyev bildirdi ki, abituriyentlərin öz bilik və bacarıqlarını göstərmək üçün ayrılan 2 saat ərzində imtahan otağında onların yüksək fəallığını müşahidə edib. Hiss etmək çətin deyildi ki, tələbə arzusunda olan gənclər qəbul imtahanına yüksək inam və ümidlə gəliblər.

İmtahan başa çatdıqdan sonra bir neçə abituriyentlə həmsöhbət olduq. Naxçıvan şəhərindən olan Aliyə İsayevanın üzündəki təbəssümdən hiss olunurdu ki, sualları yaxşı cavablandırıb. Dedi ki, yaradılan sakitlik və normal şərait hesabına o, imtahanda məhsuldar işləyə bilib. Sualların böyük əksəriyyətinə dəqiq cavab verdiyinə əmindir. İnanır ki, tələbə adına layiq görüləcək. Söhbətimizə qoşulan digər abituriyentlər də imtahanların təşkilindən razılıqlarını ifadə etdilər.

**Xəbərlər şöbəsi**

*Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2015-ci il 12 mart tarixli Sərəncamı ilə təsdiq edilən "1941-1945-ci illər müharibəsində qələbənin 70 illik yubileyinin qeyd olunması üzrə Tədbirlər Planı"na uyğun olaraq, 1941-1945-ci illər müharibəsi veteranlarının yubileylərinin keçirilməsi davam edir.*

# Müharibə veteranının 90 yaşı qeyd olunub

Bu istiqamətdə növbəti görüş iyulun 2-də Kəngərli rayonunun Xok kənd sakini Əli İbrahimovla olub. Görüşdə iştirak edən Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi naziri Cavid Səfərov, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Ramilə Seyidova və Kəngərli Rayon İcra Hakimiyyətinin başçısı Ramiz Cəfərov yubilyarı 90 yaşı münasibətilə təbrik ediblər.

Qeyd olunub ki, ölkəmizin sürətli inkişafı 1941-1945-ci illər müharibəsi veteranlarının sosial müdafiəsinin gücləndirilməsinə təminat verir. Belə ki, onların minik avtomobilləri ilə təmin edilməsi, sanatoriya və pansionatlarda müalicə üçün göndərişlərlə, texniki bərpa vasitələri və protez-ortopediya məmulatları ilə təmin olunması, veteranlara pensiya və müavinətlərlə yanaşı, hər ay Prezident təqaüdünün ödənilməsi müharibə veteranlarının rifahının yüksəlməsinə xidmət edir.

Əli İbrahimov ona göstərilən yüksək diqqət və qayğıya görə dövlətimizə minnətdarlığını bildirib.

Sonda yubilyara hədiyyə təqdim olunub.

***Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin mətbuat xidməti***

dünən Naxçıvan bu gün

# Torpağı sahibsiz qalmağa qoymayaq

***Naxçıvan Muxtar Respublikası son dərəcə aztorpaqlı zonadır. Ərazisinin 27,7 faizi kənd təsərrüfatına yararlı, yalnız 8,8 faizi suvarılan torpaq sahələridir. Burada əkin sahəsi hər adambaşına düşən 0,1 hektar olduğu halda, istifadəsiz sahələr 0,5 hektarı təşkil edir.***

Son illərdə torpaqdan istifadə edilməsinə biganəliyin nəticəsidir ki, ötən il 11.800 hektar torpaq sahəsi istifadə edilməyərək boş qalmışdır. Təsərrüfatların və rayon orqanlarının tərtib etdiyi əkin strukturuna görə isə bu il 12 min hektar sahənin boş qalacağı gözlənilir. Boş qalan sahələr Babək və Şərur rayonlarında daha çoxdur.

Torpaqdan səmərəli istifadə edilməməsində yaranmış vəziyyətin bir çox obyektiv və subyektiv səbəbləri vardır. Belə ki, muxtar respublikanın blokada vəziyyətində olması, sudartan nasos stansiyalarının fasiləsiz işləməsi üçün elektrik enerjisinin çatmaması, ölkəmizdə gedən müharibə və nəhayət, yaranmış siyasi və sosial çətinliklər xalq təsərrüfatının başqa sahələrində olduğu kimi, kənddə də işin ahəngini pozmuşdur. Lakin torpaqdan istifadə edilməsində yaranmış vəziyyətin səbəbləri təhlil edilərkən aydın olmuşdur ki, torpağın sahibsizliyi onu becərəni kənarda dayanmış tamaşaçıya çevirmişdir. Kəndli torpağın bilavasitə sahibi olmadığından, eləcə də istehsal etdiyi kənd təsərrüfatı məhsullarının satışı və istehlakına ixtiyarsızlığı onun torpağı becərməyə meylini xeyli azaltmışdır.

Müstəqilliyini əldə etmiş və milli dövlət quruculuğuna qədəm qoymuş respublikamızda iqtisadi təsərrüfat sistemindəki böhran əsaslı islahatlar aparılması zərurətini yaratmışdır. İndi səmərəli təsərrüfat formalarını tətbiq etməklə kənddə münasibətləri tamamilə dəyişdirmək olar. Bu, ilk növbədə, islahatların reallaşmasından daha çox asılıdır. Yeni təsərrüfatçılıq formalarının tətbiqi indi böhranlı vəziyyətdən yeganə çıxış yoludur.

Hazırda kənd təsərrüfatında yaranmış vəziyyəti nəzərə alaraq tələsmədən və ləngimədən torpaq islahatlarının keçirilməsi inkaredilməzdir. Bu islahatlar torpağa olan münasibəti dəyişdirəcək, adamların fəallığını artıracaqdır. Torpaqdan səmərəli istifadə edilməsi məqsədilə son illərdə müxtəlif təsərrüfatçılıq formalarının tətbiqi təklif edilmiş və hətta bu haqda qanunlar da qəbul edilmişdir. Bu cəhətdən torpağın icarəyə verilməsinin müxtəlif formaları və kəndli (fermer) təsərrüfatlarının yaradılması daha mütərəqqi hesab edilir. İcarə forması əkinçini torpağın daimi sahibi etmədiyindən yenə də torpağın münbitliyinə lazımınca qayğı göstərilmir. Çünki icarəyə verilən torpaq sahəsi daimi yox, müqavilə əsasında müəyyən müddətə onun istifadəsinə verilir.

Bütün bunları və başqa münaqişələr yaradan səbəbləri, eləcə də dünya ölkələrinin təcrübəsini nəzərə alaraq kəndli (fermer) təsərrüfatları yaradılmasının daha faydalı olduğunu nəzərə almalıyıq. Məhz buna görə də bu haqda geniş söhbət açmağı məqsədəuyğun hesab edirik.

Muxtar respublikada kəndli (fermer) təsərrüfatları yaradılmasına bir neçə ildir ki, başlanmışdır. Ordubad və Babək rayonlarında fəaliyyət göstərən bir çox bu cür təsərrüfatlar ilk illərdən müsbət nəticələr əldə ediblər. Keçən il fəaliyyət göstərən 16 fermer təsərrüfatının ixtiyarında olan 445 hektar torpaq sahəsinin 224,9 hektarında müxtəlif bitkilər əkilmiş və məhsul əldə olunmuşdur. İlk nəticələr ümidvericidir.

Culfa rayonunun dağlıq zonasında yerləşən "Azərbaycan" kolxozunun (Şurud və Gal kəndləri) illərdən bəri davam edən səmərəsiz fəaliyyəti həmin təsərrüfatın əsasında kəndli (fermer) təsərrüfatları yaradılmasına və gələcəkdə burada adamların vəziyyətinin yaxşılaşacağı, məhsul bolluğu yaradılacağı üçün zəmin yaratmışdır. Yaranmış 4 kəndli (fermer) və 36 şəxsi təsərrüfatlarda kəndlərin əhalisinin hamısı əhatə edilmiş, onların sahibliyinə 635 hektar (o cümlədən 254 hektar suvarılan) torpaq sahəsi, 221 baş müxtəlif yaşda iribuynuzlu mal-qara, 308 başlıq 4 tövlə verilmişdir. Fermer və şəxsi təsərrüfatlarda maşın və mexanizmlərin gücündən səmərəli istifadəni təmin etmək məqsədilə kolxozda olan avtotraktor və kənd təsərrüfatı maşınları "Texniki xidmət göstərən" bir fermer təsərrüfatında birləşmişdir. Yaranmış kəndli (fermer) təsərrüfatlarının hər birinin bankda hesabı açılmış, onların fəaliyyətinin səmərəliliyini təmin etmək məqsədilə ehtiyacı olduqda kreditlər verilməsi məsələləri həll edilmişdir. İlk günlərdən yeni yaradılmış təsərrüfatların torpaqdan istifadəsi diqqəti cəlb edir.

Bütün bunlarla yanaşı, kəndli (fermer) təsərrüfatlarının yaradılmasında qanunun tələblərinə tam əməl edilməsi işinə əsassız maneçiliklər də vardır. Azərbaycan Respublikasının kəndli (fermer) təsərrüfatları haqqında 1992-ci il 8 aprel tarixli Qanunu və Naxçıvan Muxtar Respublikası Ali Məclisinin "Zərərlə işləyən kolxoz və sovxozların ləğv edilməsi və onların əsasında şəxsi təsərrüfatların yaradılmasına dair" 1992-ci il 6 aprel tarixli qərarı ilə təsdiq edilmiş tövsiyələr yeni formalı kəndli (fermer) təsərrüfatları yaradılmasının tam qanuniliyinə şərait yaradır. Bu qanun və qərar fermer təsərrüfatlarının təşkilinin, fəaliyyətinin iqtisadi-sosial və hüquqi əsaslarını müəyyən edir. Kəndli təsərrüfatı mülkiyyətinə verilmiş torpaqda əmtəəlik məhsullar istehsalı, emalı və satışı ilə məşğul olan vətəndaşların əmək birləşməsi olmaqla müstəqil sahibkarlıq formasıdır. Kəndli təsərrüfatı ailə üzvləri, onlarla daimi işləyənlərin ümumi mülkiyyətində olan istehsal alətlərinə, bir ailə üzvlərinin əməyinə əsaslanan hüquqi şəxs statusuna malik olan müstəqil təsərrüfatçılıq subyektidir.

Kəndli təsərrüfatı yaratmaq üçün torpaq sahəsi mülkiyyətə orta torpaq norması ilə rayon, şəhər XDM tərəfindən pulsuz verilir. Bu və ya digər ərazidə yaranacaq kəndli təsərrüfatının torpaq sahəsi – torpaq payı normasının müəyyən edilməsi qanunda nəzərdə tutulan kimi hesablanmalıdır. Yeri gəlmişkən qeyd edilməlidir ki, bəzən kəndli təsərrüfatları yaradılması, onlara torpaq sahələri verilməsi, onların qeydə alınması, rayon XDM icraiyyə komitələrinin qərarı əsasında həyata keçirilir. Bu isə qanuna müvafiq deyildir. Torpaqla əlaqədar bütün məsələlər yalnız rayon XDM-nin qərarına əsasən həyata keçirilməlidir.

***"Şərq qapısı" qəzeti***
***30 aprel 1994-cü il***

***Torpaq insana bəxş olunmuş maddi sərvətlərdən ən dəyərlisidir. Yarandığı gündən onun nemətləri ilə bəslənən insanın özü qədər qiymətlidir torpaq. Qiymətli olduğu qədər həssas, həssas olduğu qədər də qayğı tələb edən torpaq həm də səxavətlidir. Çünki o, Yer üzünün ən sehrli möcüzəsi kimi milyardlarla insana dünyanın ən qiymətli nemətlərini vermək üçün yaradılmışdır. Vətəninə layiqli övlad olan, onun torpağını qoruduğu kimi, əkib-becərməyi də bacaran hər kəs bunu yaxşı bilir.***

# Torpağın sahibi

Gözümüzü açıb torpağımızı bar-bərəkətli, süfrəmizi qonaqlı-qaralı görmüşük. Dədə-babadan məclislərdə ömrünü torpağa bağlamış insanların söhbətlərində zəmilərdə boy atıb bir-birinə dolaşan sarı sünbüldən, ağzınacan dolu xırmanlardan azmı eşitmişik? Çox şükür, artıq hər mövsümdə əkin-biçinimiz üzümüzü güldürür. Niyə də olmasın! Allahın bizə verdiyi nemətlər öz əməyimizin bəhrəsi deyilmi? Ola bilər, bəlkə bu da zamanın bir sınağı olub ki, nə zamansa sanki bir anlığa özümüzü unutmuş kimi torpaqdan da ayrı düşmüşük. Amma inanıram ki, 1994-cü ildə bu ürəkağrısı dolu yazı yazılanda bütün ümidlərin bitmədiyinə, nə zamansa bu torpağın əsl sahibinin, yəni onu əkib-becərənin iş başına gələcəyinə inanan insanlar az deyildi. Çünki naxçıvanlılar, bəlkə də, min illər öncəsindən bu yerlərin sərt havasında, quraq iqlimində şöhrəti dünyaya yayılmış bağ-bağat salmış, nəsildən-nəslə keçib gələn oturaq əkinçilik mədəniyyəti yaratmışlar. Hələ sovet dövründə bu yerlərə yad olan tütün, pambıq kimi texniki bitkilər əkilsə də, Naxçıvanın bərəkətli taxıl zəmiləri, üzümlükləri, minbir ətirli meyvə bağları, dadı damaqdan getməyən bostan məhsulları bu yurdun kəndlisinin göz bəbəyi olmuşdur. Ötən əsrin 70-80-ci illərini yaxşı xatırlayanlar deyə bilər ki, Naxçıvan kəndlisi yetişdirdiyi məhsulun hesabına o dövrdə özünə necə güzəran qurmuşdu. Bəzən düşünürəm ki, bu gün də dillərdən düşməyən şirin Naxçıvan nəğmələri həmin dövrün bar-bəhərinin şövqüylə qoşulubmuş. Həmin dövrdə Naxçıvanın qəhrəman oğul-qızlarının əməyi də yüksək qiymətləndirilmiş, muxtar respublika ittifaq səviyyəsində tanınmışdı. Amma… Amma nə oldusa, nə dəyişdisə sanki birdən-birə bu şirin hekayə dönüb qorxulu bir yuxuya çevrildi. 1988-ci ildən başlayan, 1994-cü ilin sonunadək davam edən, kəndlinin, torpaq zəhmətkeşinin də bütün planlarını alt-üst edən, arzularının üzərindən acı quraqlıq yelləri əsdirən böhran və tənəzzül dövrü başladı. Bu dövrü mənim kimi ortayaşlılardan daha yaxşı xatırlayan böyüklərimiz bu haqda çox danışa bilərlər. Ancaq 1994-cü ilin 30 aprelində dərc olunan bu yazıda o dövrün müəllifinin qələmə aldığı əli işdən soyumuş kəndlinin güzəranını əks etdirən sətirlər hər şeyi deyir. Naxçıvanda çox az adam olar ki, o dövrlər torpaq sahibsizliyinin nəticələrindən əziyyət çəkməsin, əcnəbi yardımlar üçün növbələrə yazılmasın. Respublikamızın cəlb olunduğu müharibə vəziyyəti, Naxçıvanın düşdüyü ağır blokada şəraitində həmin yardımlar ərzaq bazarında vəziyyəti müvəqqəti sabitləşdirməyə yönəlsə də, əsl problem bundan sonra başlanırdı. Minlərlə insan qonşudan gələn bir pay halvanın şirin dadına aldanıb öz peşəsini, dədə-baba məsləyini bir tərəfə atıb saqqız, siqaret alverinə qurşandı… Beləcə, o dövrdə cəmiyyəti bürümüş dərin sosial-iqtisadi böhranı aradan qaldırmaq üçün hər sahədə köklü islahatlar tələb olunurdu ki, bu da şübhəsiz, ilk olaraq, kənd təsərrüfatından, torpağa münasibəti dəyişməkdən keçirdi.

Və zaman gəldi, vaxt yetişdi, islahatlar dövrü başladı. Bu haqda çox deyilib, çox yazılıb. Hətta muxtar respublikamızda həyata keçirilən ilk torpaq islahatları, yəni zərərlə işləyən kolxoz və sovxozların əsasında yeni kəndli-fermer təsərrüfatlarının yaradılması ideyası haqda həmin 21 il əvvəlki yazıdan da oxuyuruq. Amma bu dövrdən bəri Naxçıvanda insanları torpağının yenidən sahibi edən, kəndlini öz iş-gücünə qaytaran hansı işlər görüldü, nələr baş verdi ki, cəmisi 20 ildə muxtar respublika əksər ərzaq məhsulları ilə özünü tam təminata nail oldu, bu qədər geniş suvarma şəbəkəsi yaradıldı, zəmilərə nərilti salan bu qədər yeni texnika alınıb gətirildi?

Deyildiyi qədər sadə görünməyən bu işlərin arxasında gərgin zəhmətlə dolu illər artıq arxada qalmışdır. Amma o da var ki, bu gün böyük bir hissəsi reallaşdırılmış 2008-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına, icrası uğurla başa çatdırılmış 2005-2010-cu illərdə kartofçuluğun inkişafına, icrası uğurla davam etdirilən 2012-2015-ci illərdə meyvəçiliyin və tərəvəzçiliyin inkişafına dair dövlət proqramları qəbul edilməsəydi, muxtar respublikada ümumi tutumu 12 min 250 ton olan soyuducu anbarlar, tutumu 27 min ton olan uzunmüddətli və 43 min 400 ton olan qısamüddətli taxıl ehtiyatı anbarları, 17 taxıl emalı müəssisəsi, 222 heyvandarlıq, 64 quşçuluq, 94 arıçılıq, 12 balıqçılıq, 68 bağçılıq və üzümçülük təsərrüfatı yaradılmasaydı, muxtar respublikanın əkin sahələrini cana gətirən yüz milyonlarla kubmetr su ehtiyatı yaradan su anbarları və geniş suvarma şəbəkələri istifadəyə verilməsəydi, hazırda kənddə əl əməyini, demək olar ki, minimumlaşdırmış müasir kənd təsərrüfatı texnikaları alınıb kəndliyə güzəştli qiymətlərlə verilməsəydi… kim bilir yenə də hardansa gətirilən yardımların ümidinə qalmışdıq. Ancaq, şükürlər olsun ki, düşmən blokadasını yarıb bunları yarada bildik. Və bütün bunların nəticəsidir ki, bu gün regionumuzda kənd, şəhər demədən hər yerdə mağazalarımız ərzaqla dolub-daşır, evlərdəki köhnədənqalma soyuducular sürətlə genişhəcmli yeniləri ilə əvəz olunur, şəhərdə bişirilən çörək səhər saat 9-da isti-isti ucqar dağ kəndi Küküyədək aparılır, könlü lavaş istəyənlər üçün Saltaq lavaşı bir zənglə həmin gün evlərə çatdırılır... Amma bu gün 21 yaşlı qayğısız universitet











tələbələrimiz, bəlkə də, heç vaxt bilməyəcəklər ki, Naxçıvanda gün vardı adamlar səhər saat 7-dən çörək növbəsinə dayanar və ya o dövr üçün mataha dönmüş 1 kilo "əl əti", yəni indi hər yerdə 7 manata satılan təzə ət almaq üçün səhər saat 6-dan Cəhri yoluna tələsərdilər. Aman! Qoy görməsinlər, kimsə bunu bir daha arzulamır da. Amma bizim haradan haraya gəlib çıxdığımızı, adamların hansı əziyyətlər çəkərək bu günün dəzgahını necə qurduğunu hamı yaxşı bilməlidir. Bilməlidir ona görə ki, bu nə yüz, nə də min il əvvəlki tarixdir, kimsə təhrif etsin, bizə başqa cür çatdırılsın. Bu, bizim üçün yaxın keçmişin ağır imtahan dövrü, əl-ələ verib ümummilli liderimizin, onun yolunun davamçılarının ətrafında sıx birləşərək bugünkü gücümüzə qovuşduğumuz tarixdir. Qoy bilsinlər, necə oldu ki, muxtar respublikada 1994-cü ildəki cəmi 14 min hektar olan taxıl əkini sahəsi bu gün 36 min hektara çatdırıldı, həmin dövrdə yığılan 19 min ton taxıla qarşı 2014-cü ildə 103 min ton taxıl anbarlandı. Və yaxud 1994-cü ildə cəmisi 727 ton meyvə, giləmeyvə toplanılan Naxçıvanda 2014-cü ildə bundan, təqribən, 60 dəfə çox, yəni 43 min tondan artıq məhsul götürülməsi möcüzədirmi? Yox! Sadəcə, torpağın sahibi olmaqdır işin sirri. Hər halda naxçıvanlılar torpağın sahibi oldular ki, indi 1994-cü ildəkindən, təqribən, üç dəfə çox, yəni 60 min hektardan artıq torpaq sahəsini əkin dövriyyəsinə qata bildilər. 2015-ci il muxtar respublikamızda "Kənd təsərrüfatı ili" elan olunmuş, qarşıya daha yüksək vəzifələr qoyulmuşdur. Gələcəkdə daha inamlı olmaq üçün keçilən bu tarixi də yaxşı bilmək lazımdır. Bunun üçün isə təkcə rəqəmlər, faktlarla yazılan tarixi öyrənmək azdır: belə bir gözəl yay günündə Naxçıvanın kəndlərinin birinə yollanıb oradakı insanların gün-güzəranını yerindəcə görmək, onların iş-gücü, təsərrüfatı ilə tanış olmaq, yay qayğıları ilə birgə yaşamaq lazımdır.

**✍ Əli CABBAROV**

*Nəqqaşlıq hansısa şəklin və ya yazının kəsici alətlə müxtəlif materialların üzərinə həkk olunmasıdır. Nəqqaşlıq dekorativ-tətbiqi sənət növü kimi qəbul edilir. Müasir dövrdə, əsasən, məişət əşyalarının bəzək işlərində tətbiq olunur. Texniki xüsusiyyətlərinin çətinliyi ucbatından uzun illər bu işlə yalnız mahir sənətkarlar məşğul olublar və bu sənət əsrlərboyu yüksək qiymətləndirilib. Nəqqaşlıqla məşğul olan kəslərə nəqqaşlar deyilir.*

# Qədim Naxçıvanın qədim sənət növləri – *nəqqaşlıq*



Nəqqaşlar ya əl ilə, ya da mexaniki üsulla işləyirlər. Bu zaman onlar metal, daş, taxta, şüşə üzərinə müəyyən təsvirləri köçürür, dekorativ bəzək işlərini görürlər. Adətən, nəqqaşlar həm də rəssam və xəttat olurlar. Dekorativ-tətbiqi sənətin ən zərif növlərindən biri sayılan nəqqaşlıq uzaq keçmişdə şöhrətli peşə sahəsi kimi tanınıb. İndi daha çox müasirləşib və nisbətən istiqamətini də genişləndirib. Qədim zamanlarda işlənmə xüsusiyyətləri xüsusi peşəkarlıq tələb etdiyi üçün uzun zaman bu sənətlə yalnız məharətli ustalar məşğul olublar. Bu əl işləri metal, daş, taxta, şüşə üzərinə cızılan təsvirlər və ya dekorativ bəzək işlərindən ibarət idi. Çox zaman nəqqaşlar rəssamlığı və xəttatlığı gözəl bilən şəxslər olurdu. Nəqqaşlıq sənəti ilk dəfə Çində yaranıb. Sonrakı mərhələlərdə nəqqaşlıq sənəti Yunanıstan və Orta Asiyada inkişaf etməyə başlayıb. Azərbaycanda da nəqqaşlığın inkişafında böyük rol oynayan sənətkarlar yaşayıb. Şah İsmayıl Xətainin dövründə Səfəvi sarayının yanında məşhur Təbriz sənət məktəbi təsis olunub. Tanınmış rəssam Behzad Heratdan bura qayıdıb və bu məktəbə başçılıq edib. Behzad bu dövrdə xüsusilə böyük Azərbaycan şairi Nizaminin əsərlərini bəzəməklə məşğul olub.

Nəqqaşlığın tarixi haqqında bir çox məlumatlar olsa da, bu sənət növü tam əhatəli tədqiqata cəlb olunmayıb. Daha çox riyazi dəqiqlik, həvəs və səbir tələb etdiyinə görə kütləvi xarakter almayıb. XI əsrdə Avropa ölkələrində qrafika sənəti təşəkkül tapıb. O dövrdən metalişləmə, ağacoyma və silahların bəzədilməsi dəbə düşüb. Beləliklə, bu sənət tezliklə Yaxın Şərqdə, o cümlədən İran, Türkiyə, Misir, İspaniya və Mərakeşdə geniş yayılıb. Qaynaqlarda göstərilir ki, ölkəmizdə nəqqaşlıq sənəti XIX yüzillikdə geniş inkişaf edib. Şamaxıda Mirzə Cəfər, Şuşada Usta Qurban Qarabaği, Ordubadda Usta Zeynal Nəqqaş və başqaları bu dövrün məşhur ustaları olublar.

Mənbələrdən aydın olur ki, Usta Zeynal Nəqqaşın əl işləri özünəməxsusluğu ilə seçilib. Onun abidələr üzərinə vurduğu naxışlar zamanın sınağından çıxaraq bu günümüzədək gəlib çıxmışdır.

Qeyd edək ki, Usta Zeynal Nəqqaş dövrünün məşhur xəttat, nəqqaş və şairi kimi tanınıb. El arasında "Qızıl əlli nəqqaş" adı ilə məşhur olub. Naxçıvanda Xan sarayına, Bakıda Hacı Zeynalabdin Tağıyevin ev-muzeyinə, Təbrizdə və Ordubaddakı Cümə məscidlərinə, Məşədi Tağının evinə, Əylis, Vənənd kəndlərində bəzi evlərə çəkdiyi rəsmlər və vurduğu naxışlar hələ də qalmaqdadır. Ordubad şəhərinin "Malik İbrahim" qəbiristanlığındakı dağa bitişik "Qara pir"ə möhtəşəm naxış elementləri vurub. Eyni zamanda XIX əsrin axırlarında Ordubaddakı Cümə məscidinin arxa tərəfinə yumurta sarısı, əhəng və başqa materiallardan hazırladığı məhlul vasitəsilə "Şiri-xurşid" gerbini işləyib. Həmçinin məscidin divarına öz şeirindən beytlər də həkk edib. Ordubadda təşkil edilən "Əncüməni-şüəra" adlı ədəbi məclisin məşğələləri bəzən Usta Zeynal Nəqqaşın evində keçirilib. Görkəmli yazıçı Məmməd Səid Ordubadinin məşhur "Tərcümeyi-halım" əlyazmasında Usta Zeynal Nəqqaş haqqında dəyərli fikirlər var. Nəqqaş insanları düz yola, cəmiyyətə xeyir verməyə, pak və ülvi məhəbbətlə sevməyə çağıran bir sıra lirik şeirlər müəllifidir.

Nəqqaşlığın bir sıra janrları mövcuddur. Metal və ya mis üzərində iynə ilə cızılmış, sonra basma üsulu ilə işlənmiş qravürə oford deyilir. Daş üzərində həkk olunmuş təsvirlərə litoqrafiya, ağac üzərində həkk olunmuş təsvirlərə isə ksiloqrafiya deyilir ("lito" yunanca daş, "ksilo" ağac deməkdir). Müasir dövrdə nəqqaşlıqda, əsasən, kitab qrafikası (kitabların tərtibatı), dəzgah qrafikası (bir nüsxədə yaradılan əsərin çoxaldılması), elmi-tədqiqat qrafikası (elmi cədvəllər, çertyojlar, sxemlər, xəritələr, tədris cədvəlləri və sair) istifadə olunur.

Nəqqaşın səbri, zövqü, əllərindən savayı nəqqaşlıq alətləri də vardır ki, nəqqaşlar üçün bunlar vacibdir. Bu alətlər nələrdir, necə hazırlanır, necə istifadə olunur?

Nəqqaşlar materialı kəsmək üçün müxtəlif alətlərdən istifadə edirlər. Puanson formasına görə mismara bənzəyən alətdir. Onun köməyilə müxtəlif dərinlikdə və müxtəlif endə xətlər çəkmək (cızmaq) mümkündür. Ştixel nəqqaş qələmidir. Frezer fırlanan kəsici alətdir. Bu alətlərdən indi yalnız zərgərlikdə istifadə olunur.

Müasir dövrün nəqqaşları çox vaxt lazerdən istifadə edirlər. Bu zaman material üzərinə hərf və şəkilləri daha aydın təsvir etmək, iti bucaqları, müxtəlif sıxlıqlı şəkilləri daha dəqiq həkk etmək olur. Metal və şüşə üzərinə təsvir salmaq üçün isə nəqqaşlar müxtəlif kimyəvi turşulardan istifadə edirlər. Hazırda nəqqaşlığın sənaye üsulundan daha çox istifadə olunur. Müasir dövrdə işlənilən səlis kompozisiyalı, mürəkkəb naxışlı bədii qutular, mücrülər, hədiyyə qovluqları və sair nəqqaşlıq nümunələri sayılır. Hazırda əsl nəqqaşlığın tətbiq edildiyi sahələrdən biri də zərgərlikdir. Ağac, metal, keramika məmulatlarına bəzək vurmaq üçün əlvan metal təbəqələrdən, fil və digər heyvanların sümüyündən, plastmasdan hazırlanan həndəsi formalı kiçik fiqurlar məmulatın üzərinə yerləşdirilir və onlardan müxtəlif formalı naxışlar yaradılır.

Xalq rəssamı Hüseynqulu Əliyev mövzu ilə bağlı söhbətimizdə qeyd etdi ki, nəqqaşlıq rəssamlığın tərkibinə daxildir. Müasir dövrümüzdə də nəqqaşlıq geniş inkişaf etdirilir. Hər bir rəssamın yaratdığı əsərdə müəyyən nəqqaşlıq elementləri yer alır. Nəqqaşlıq qədimdən bəri Naxçıvanda əhəmiyyətli yer tutmuşdur. Naxçıvan Dövlət Tarix Muzeyində Naxçıvan Muxtar Respublikası ərazisində aşkar olunan mis və gümüş pullar, orta əsrlərin məşhur memarlarından olmuş Əcəmi Əbubəkr oğlu Naxçıvaninin inşa etdiyi möhtəşəm Möminə xatın, Yusif Küseyir oğlu türbələrinə və başqa memarlıq abidələrinə dair şəkilli materiallar, dekorativ-tətbiqi sənətə aid xalçaçılıq, zərgərlik, misgərlik, dulusçuluq və nəqqaşlıq nümunələri, xalq ustalarının gözəl əl işləri sərgilənir. Qədim xalq adət-ənənələri müasir zamanımızda bir çox xalq sənətkarları tərəfindən yaşadılır, inkişaf etdirilir. Lakin nəqqaşlıq kimi gözəl və lazımi sənət növü təəssüf ki, dövrümüzdə unudulub.

Rəssam Nizami Alıyev isə bildirdi ki, nəqqaşlıq bəzi sənət növlərinin tərkibində yaşadılsa da, bu, o dövrdəki nəqqaşlıq sənətini tam mənasıyla əhatə etmir, çünki əvvəllər nəqqaşlıq böyük sahə olub.

Qədim sənət növlərini inkişaf etdirmək keçmişimizi unutmamaq üçün vacibdir. Bu, keçmişə sədaqət, gələcəyə borcumuzdur.

**✍ Nərgiz İSMAYILOVA**

---

**Həkim məsləhəti**

# Yay mövsümünün ilan-əqrəb fəsadları

***İnsanlarda minilliklərboyu ilanlardan qorxu hissi mövcuddur və bu, əsassız deyil. Dünyada hər il 5 milyona qədər insan ilan çalmasına məruz qalır, onlardan, təxminən, 100 min nəfərində bu, ciddi fəsadlara səbəb olur. Ancaq tibbi yardımın yaxşı təşkil olunması səbəbindən il ərzində yalnız 9-15 halda bu, ölümlə nəticələnir. Muxtar respublikamızda da yay aylarında ilan və əqrəblərin fəallaşması, ilan çalması, əqrəb sancması nəticəsində baş verən zəhərlənmələrə təsadüf edilir. Bu sahədə əhalinin maarifləndirilməsi zərurətini nəzərə alaraq Naxçıvan Muxtar Respublika Xəstəxanasının həkimi Fəxriyyə Məmmədova ilə həmsöhbət olduq:***

***– Fəxriyyə həkim, ilan çalması, əqrəb sancmasına, əsasən, hansı yerlərdə rast gəlinir?***

– İlan çalma, əqrəb sancmalar hər yerdə rast gəlinən hadisələrdəndir. Lakin kənd yerlərində, xüsusən otlaq, zəmi, qamışlıq, bataqlıq, şoranlıq, meşə, çöllük, daş karxanası və digər sahələrdə belə hallara daha çox rast gəlinir. İlan sancması tarlada işləyərkən və ya təsadüfi ilan ayaqlanmasından baş verə bilər. Aparılan təmir-tikinti işləri zamanı ilanlarla yanaşı, əqrəblərin də üzə çıxması istisna deyil. Bütövlükdə isə belə halların çoxalması havaların isti keçməsi ilə əlaqədardır. Bu ilin ilk ilan çalması hadisəsi aprelin 17-də baş vermiş, yay mövsümü başlanandan isə Naxçıvan Muxtar Respublika Xəstəxanasına 6 nəfər ilan çalma, 9 nəfər isə əqrəb sancma ilə gətirilmiş, 2 nəfəri ambulator, digərləri isə stasionar şəraitdə müalicə olunmuş, ölüm halları baş verməmişdir.

***– Zəhərli ilanlardan hansı daha çox təhlükəlidir?***

– İlanlar zəhərinin təsirinə görə fərqlənirlər. Ən təsirli, ölümcül zəhərə görə kobralar öndə durur. Naxçıvanda zəhərli ilanlardan ən geniş yayılanı gürzə hesab olunur. Zəhərli ilanlar qısa, quyruqları yumru və başları üçbucaq şəklində olanlardır. Üzərlərindəki pullar daha kiçik və daha çoxdur. Çox parlaq və canlı rənglərdə olurlar. Dişləmə zamanı qan laxtalanması müddəti artır, həddindən artıq qan itkisi olur. Yanma hissi və ağrı olur. Sinir sisteminə və ürəyə təsir edir. İlan sancması zamanı kəskin ağrı, yuxululuq, hətta qıcolma baş verir. Ağrı bütün bədən boyu yayılaraq bədəni iflic edir. Sancma zamanı sonradan serum vurularkən onun növünü dəqiq bilmək üçün ilanın görünüşünü yadda saxlamaq lazımdır.

***– İlan sancmasından sonra hansı əlamətlər müşahidə olunur?***

– İlan sancmasında toxumaların ödemi (şişməsi) və dişlənən yerdə bərk ağrı, başağrısı, hərarətin artması, özündəngetmə halları müşahidə olunur. Zəhər orqanizmə yeridikcə zəhərlənmə əlamətləri tədricən artır.

İlanın sancdığı yerdə güclü ağrı, qızartı, göyərmə və şişkinlik, başgicəllənmə, başağrısı, nəbzin artması, təngnəfəslik, ümumi zəiflik, yuxululuq, ürəkbulanma, qusma, üşütmə baş verir, soyuq tər basır.

***– Təcili yardım gələnə qədər zərərçəkənlə necə davranılmalıdır? İlan çalması, əqrəb sancması nəticəsində baş verən zəhərlənmə hallarında ilkin tibbi xidmət necə təşkil olunmalıdır?***

– Zərərçəkən təcili halda ayaqları bir qədər yuxarı olmaqla uzadılmalı və tam sakitlik təmin olunmalıdır. Zərərçəkən heç bir halda hərəkət etməməlidir. Təcili yardım maşınına qədər onu xərəkdə aparmaq lazımdır. İmkan olduqda sancmadan sonrakı ilk 10 dəqiqə ərzində yaradan zəhəri sıxıb çıxarmağa çalışmaq lazımdır. Bunun üçün yara sahəsində dəri elə sıxılmalıdır ki, oradan bir neçə damcı maye çıxsın.

Sonra yara təmiz su ilə yuyulub yod ilə dezinfeksiya edilməli və üzərinə steril sarğı qoyulmalıdır. Ətraf şişdikdə sarğını bir qədər boşaltmaq lazımdır. Sınıqlarda olduğu kimi ətrafa şin qoyulur və ya zədələnmiş ətraf sağlam ətrafa bağlanır. Bu yolla zəhərin orqanizmə yayılma sürəti azalır. Sarğının üzərinə, zəhərin sorulma sürətini azaltmaq üçün, paketə qoyulmuş buz və ya soyuq kompres qoymaq lazımdır.

Zərərçəkənə çox miqdarda maye (çay, su) və ağrıkəsici dərmanlar verilməlidir. Əgər xəstənin vəziyyəti çox ağır deyilsə, onu təcili olaraq maşında xəstəxanaya çatdırmaq lazımdır. Lakin bir çox ağır hallarda xəstənin xəstəxanaya müstəqil surətdə aparılması xeyli təhlükəli ola bilər. Yaxşısı budur ki, zərərçəkəni xəstəxanaya təcili yardım briqadası çatdırsın. Çünki xəstəxanada zərərçəkənə xüsusi zərdab vurulacaq və ya digər müalicə üsulları tövsiyə olunacaqdır.

Zəhərin uzun müddət ərzində təsir etməsi və vaxtında düzgün tibbi yardımın göstərilmədiyi təqdirdə zərərçəkəndə əvvəlcə həyəcanlılıq, daha sonra isə əzginlik, dərinin avazıması, nəbzin sürətlənməsi, başgicəllənmə, kəskin zəiflik, arterial təzyiqin enməsi, huşun itirilməsi, tənəffüsün və ürək döyünməsinin dayanması ilə müşayiət olunan şok başlaya bilər. İlan sancması zamanı heç bir halda yaranı yandırmaq (isti bir şeylə və sair), bu yerdə dərini kəsmək, zərərçəkənə spirtli içkilər vermək olmaz!

***– Əqrəb, arı, böcək və həşərat sancmalarına da az rast gəlmirik.***

– Bəli, isti günlərdə belə hallar gündəlik həyatımızda müşahidə olunur. Əqrəb sancan adama spirt verilməməli və yara bağlanmamalıdır. Əqrəblər iqlimi quru olan ərazilərdə geniş yayılmışdır. Onlar sərin və nəm olan yerlərdə məskunlaşır. Əqrəb sancması baş vermişsə, həkim gələnə qədər yaranı yuyub üzərinə soyuq kompres qoyulmalıdır. Burada ilk şərt həkimə çatdırana qədər əqrəb sancmış nahiyəni tərpətməmək, həmçinin xəstəni hərəkət etməyə qoymamaqdır. Digər tərəfdən, yaranın yuxarı hissəsini dəsmalla bağlamaq və yaraya dəsmala bağlanmış buz parçası qoymaq lazımdır. Belə etdikdə, buz orqanizmə zəhərin daxil olması prosesini ləngidir.

***– İlan və əqrəb zəhəri əleyhinə zərdab ehtiyatının yaradılmasına yay aylarında daha çox ehtiyac yaranır. Çalışdığınız xəstəxanada bu sahədə vəziyyət necədir?***

– Mövsümə uyğun olaraq, Naxçıvan Muxtar Respublika Xəstəxanasında hər il olduğu kimi, bu il də kifayət qədər ilan və əqrəb zəhəri əleyhinə zərdab ehtiyatı yaradılıb. Zərdablar təkcə muxtar respublika xəstəxanasına deyil, bütün rayon mərkəzi xəstəxanalarına, ilan və əqrəb sancmaları daha çox rast gələn böyük kəndlərimizin həkim ambulatoriyalarına ehtiyac olan qədər paylanılmışdır. Zərdabların monovalent, polivalent, gürzə əleyhinə növləri vardır. Biz, əsasən, polivalent zərdab növündən istifadə edirik. Zərdabların istifadə qaydasını mənimsəmək üçün əvvəlcədən bu işlə məşğul olan tibb işçilərinə seminarlar keçirilir. Bu zərdablar istifadə olunduqca, zərdab ehtiyatı Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyi tərəfindən vaxtaşırı tənzimlənir. Zərdabların istifadə müddətinə, xüsusi saxlanma şəraitinə daim nəzarət edilir. Bu iş təlimata və günün tələblərinə uyğun şəkildə aparılır.

***– Ehtiyat tədbirləri barədə nə deyə bilərsiniz?***

– Çox təəssüf ki, bəzən yay fəslinin ilan-əqrəb fəsadlarına qarşı ehtiyatlı olmaq əvəzinə ilanın ağına da, qarasına da lənət oxuyuruq. İlanlar adi halda insanlara hücum etməz və onları sancmağa qalxmaz. Qorxduqları halda və ya ayaqlandıqda, tutulmaq istədikdə özlərini müdafiə etmək üçün insanı sancırlar. İlanlar, adətən, insanlara qarşı ilk olaraq aqressivlik göstərmirlər. Bir çox hallarda ilan insana özünü qorumaq məqsədilə hücum edir. Odur ki, təhlükəli sahələrdə, xüsusilə gecələr ehtiyatlı olmalı, rezin materialdan hazırlanmış uzunboğaz çəkmələrdən istifadə etməli, bədənə yapışmayan köynək və şalvar geyinməliyik.

**Müsahibəni apardı:**
**Hüseyn ƏSGƏROV**


ŞƏRQ qapısı
Baş redaktor: TURAL SƏFƏROV

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi, 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Kərəm Həsənov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 4020. Sifariş № 512